# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2014-cü il ərzində fəaliyyətinə dair

# H E S A B A T I

## I. Ümumi hissə

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2014-cü ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasını, Gömrük Məcəlləsini, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kollegiyasının 30 yanvar 2012-ci il tarixli 01/04 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2012-2016-cı illər üzrə inkişafına dair Fəaliyyət Planı”nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurmuşdur.

Hesabat dövründə milli iqtisadiyyatın stimullaşdırılması, dövlətimizin iqtisadi siyasətindən irəli gələn aidiyyatı vəzifələrin icrası, Azərbaycan Respublikasının gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin  keçirilməsi qaydalarına riayət olunmasının təmin edilməsi, ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrinin tətbiqi, gömrük ödənişlərinin alınması, valyuta nəzarətinin həyata keçirilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması və daxili bazarın qorunması, gömrük nəzarətinin təşkili və möhkəmləndirilməsi, gömrük işi sahəsində cinayətlər və digər hüquqpozmalar ilə mübarizə, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni keçirilməsi hallarının qarşısının alınması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastrukturun inkişaf etdirilməsi, kadr hazırlığının artırılması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi sahəsində zəruri işlər görülmüşdür.

İlk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesinə önəm verərək müvafiq normativ-hüquqi aktların hazırlanması işi davam etdirilmiş və Beynəlxalq Konvensiyaların müddəaları nəzərə alınmaqla, gömrük nəzarəti və rəsmiləşdirilmə prosedurlarının yeni normalara uyğunlaşdırılması, proqressiv gömrük alətlərinin milli səviyyədə istifadə olan qaydalara transformasiya edilməsi, gömrük işinin həyata keçirilməsi məsələlərini tənzimləyən prosedurların daha da rasionallaşdırılması məqsədi ilə bəzi qaydalara əlavələr edilmiş, eləcə də yeni normativ sənədlər hazırlanaraq, müvafiq qaydada təsdiq edilmişdir. Hesabat dövründə aşağıda qeyd olunan gömrük işinə dair müvafiq işlər həyata keçirilmişdir.

## II. Büdcə gəlirləri-xərcləri və maddi-texniki bazanın möhkəmləndirilməsi.

Hesabat ilində “2014-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi üçün ötən ilə nisbətən 130 milyon manat və ya 9,42 faiz artımla müəyyən edilmiş 1 milyard 510 milyon manat büdcə proqnozunun bölgüsü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanaraq təsdiq olunmuşdur. İllik büdcə proqnozu Komitə tərəfindən ərazi və ixtisaslaşdırılmış gömrük idarələri arasında bölüşdürülmüş, aylar üzrə yerinə yetirilməsi mütəmadi olaraq nəzarətə götürülmüşdür. 2014-cü il üzrə illik büdcə proqnozu faktiki olaraq 1 milyard 510,76 milyon manat məbləğdə yerinə yetirilmiş, toplanan gömrük vergi və rüsumlarının dövlət büdcəsinə köçürülməsi təmin olunaraq, nəticə etibarı ilə proqnoza 100,05 faiz əməl edilmişdir.

Bununla yanaşı Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən 2014-cü il ərzində sərhəddə “İcazə” blanklarının verilməsinə görə 11,7 milyon manat məbləğində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunmuşdur.

Eyni zamanda 2014-cü il ərzində Mərkəzi Gömrük Ekspertizası İdarəsinə nəqliyyat vasitələrinə uyğunluq sertifikatının verilməsi üçün olunmuş müraciətlərə əsasən verilmiş uyğunluq sertifikatlarına görə 494,5 min manat həcmində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Gömrük orqanları tərəfindən idxal mallarına tətbiq olunan gömrük vergi və rüsumlarına görə vergi növləri üzrə toplanan gömrük ödənişlərinin dövlət büdcəsinə köçürülməsi barədə məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet saytına daxil edilmişdir.

Habelə gömrük orqanları tərəfindən toplanaraq dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə mütəmadi olaraq məlumatlar verilmişdir.

Eyni zamanda 2015-ci və növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədi ilə geniş iqtisadi təhlillər aparılmış və müvafiq təkliflər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilmiş, nəticə etibarı ilə Dövlət Gömrük Komitəsi üçün 2014-cü il ilə müqayisədə 2015-ci il üçün 80 milyon manat və ya 5,3 faiz artımla 1 milyard 590 milyon manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Komitənin Mərkəzi aparatı və Komitənin strukturuna daxil olan gömrük orqanlarının 2014-cü il üçün büdcə və büdcədənkənar vəsaitlərinin xərc smetaları

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilmiş, gömrük orqanlarına və aidiyyəti xəzinədarlığa təqdim olunmuşdur.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kotirovka prosedurları keçirilərək onların yekun protokolları Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

2014-cü ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin saxlanılması üçün təsnifata uyğun olaraq, xərc maddələri üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə vəsaiti ayrılmış və xərclənməsinə nəzarət təmin edilmişdir.

Hesabat dövründə Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin inzibati binasının yenidən qurulması və genişləndirilməsi, Lənkəran Beynəlxalq Hava Limanı ərazisində Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin “Lənkəran hava limanı” gömrük postunun yeni inzibati binasının kompleks tikintisi başa çatdırılmışdır. Eyni zamanda Balakən Gömrük İdarəsinin “Mazımçay”, Tovuz Gömrük İdarəsinin “Sınıq -Körpü”, Xaçmaz Gömrük İdarəsinin “Samur” gömrük postlarında və Sədərək Gömrük İdarəsinin buraxılış məntəqəsində iri həcmli yüklərin yoxlanılması üçün Rentgen nəzarət məntəqələrinin tikinti-quraşdırma işləri tamamlanmış, məntəqələrə giriş-çıxış yolları salınmışdır. İri həcmli yüklərin yoxlanılması üçün 4 ədəd HCVG 60-32 müasir texnologiya ilə hazırlanmış xarici markalı avadanlıq quraşdırılmışdır. Həmçinin Biləsuvar Gömrük İdarəsinin “Qoşa-Təpə” gömrük postunda iri qabaritli yüklərin keçməsi və nəzarəti üçün əlavə yolun və baxış meydançasının tikintisi tamamlanmışdır.

Mütəmadi olaraq gömrük orqanları texniki ləvazimatlar, geyim dəstləri, zəruri avadanlıqlar və inventarlarla təchiz edilmişlər.

Hesabat ilində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi fəaliyyətini düzgün təşkil etmiş və bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalında müayinə-müalicə işləri təkmilləşdirilmiş, göstərilən tibbi xidmətlərin çeşid və keyfiyyəti daha da yaxşılaşmış, ehtiyac duyulan ən müasir tibb avadanlıqlar ilə hospital təchiz olunmuşdur.

## III. Qanunvericiliyin təkmilləşdirilməsi.

2014-cü il ərzində Komitə tərəfindən hazırlanmış aşağıdakı qanunvericilik layihələri müvafiq qaydada təsdiq edilərək normativ-hüquqi akt statusu almışdır:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il tarixli 3 nömrəli Qərarı ilə “Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydaları”;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il tarixli 4 nömrəli Qərarı ilə “Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il tarixli 5 nömrəli Qərarı ilə "Malların beynəlxalq və daxili tranzit xüsusi gömrük prosedurları altında yerləşdirilərək daşınması Qaydaları";

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 yanvar 2014-cü il tarixli 17 nömrəli Qərarı ilə "Gömrük təmsilçiliyi, o cümlədən gömrük brokeri fəaliyyətini tənzimləyən Qaydalar";

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2014-cü il tarixli 34 nömrəli Qərarı ilə "Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları";

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2014-cü il tarixli 88 nömrəli Qərarı ilə "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları";

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2014-cü il tarixli 89 nömrəli Qərarı ilə "Gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi malların və nəqliyyat vasitələrinin dövlət mülkiyyətinə keçirilməsi Qaydaları";

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli 263 nömrəli Qərarı ilə "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları";

Eyni zamanda Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07.02.2014-cü il tarixli 41 və 42 nömrəli, o cümlədən, 25.04.2014-cü il tarixli 112 və 113 nömrəli qərarları ilə ölkə ərazisinə idxal edilən mühərrik benzininə tətbiq edilən idxal gömrük rüsumlarının və aksiz vergisi dərəcələri aşağı salınmış, bununla yanaşı idxal gömrük rüsumu və əlavə dəyər vergisindən azadolmanı nəzərdə tutan "alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" 10 il müddətinə təsdiq olunmuşdur.

Həmçinin idxal-ixrac əməliyyatlarının asanlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 24.06.1997-ci il tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na Komitə tərəfindən təklif edilən dəyişikliklər qəbul edilərək, Azərbaycan Respublikası Prezidentinin 09.07.2014-cü il tarixli 223 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Qeyd olunanlarla yanaşı hesabat dövründə Azərbaycan Respublikasının Gömrük Məcəlləsi də daxil olmaqla gömrük işinə dair bir sıra digər normativ-hüquqi aktlara da zəruri əlavə və dəyişikliklər edilmişdir.

Yuxarıda qeyd olunan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.07.2014-cü il tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş gömrük bəyannamələrinin formalarının doldurulması qaydalarının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri “Gömrük bəyannamələrinin doldurulması qaydalarının metodikalarının və metodiki tövsiyyələrinin təsdiqi haqqında” 31.10.2014-cü il tarixli 100/143 nömrəli Sərəncam imzalamışdır. “Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların bəyan edilmə qaydalarının metodikası” işlənib hazırlanmış və Dövlət Gömrük Komitəsinin 23 oktyabr 2014-cü il tarixli 100/140 nömrəli Sərəncamı ilə qüvvəyə minmişdir.

O cümlədən, “Xüsusi gömrük statistikasının aparılması Qaydaları”, “Ümumdünya Poçt İttifaqının Aktlarında nəzərdə tutulmuş sənədlərlə müşayiət olunan beynəlxalq poçt göndərişləri ilə göndərilən malların gömrük rəsmiləşdirilməsi Qaydaları”, “Risklərə dair məlumatların və gömrük kəşfiyyatı məlumatlarının mübadiləsi Qaydaları”, “Poçt rabitəsi operatorları tərəfindən gömrük borcu üzrə ödənişlərin gömrük orqanlarının hesabına köçürülməsinin Qaydası”, “Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən keşik çəkmənin (patrulluğun) və gömrük müşahidəsinin aparılması Qaydaları”, “Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında” Protokolun forması, “Gömrük nəzarəti zonalarının yaradılması və nişanlanması Qaydaları”, “Şəxsi yoxlama aparılması haqqında” Protokolun forması, “Ümumi meyarların və prioritet nəzarət sahələrin müəyyən edilməsi üzrə Qaydalar”, “Ümumi risklərin idarə edilməsi Qaydaları”, “Gömrük orqanları sistemində risklərin idarə edilməsi sisteminin tətbiqi qaydaları və formaları” və “Beynəlxalq Dəniz Ticarət Limanı” gömrük postu haqqında Əsasnamə”nin layihələri hazırlanmış və Komitənin Kollegiyasının qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin edilmişdir.

Bununla yanaşı “Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2011-ci il tarixli 499 nömrəli Fərmanının 27.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktları qüvvəyə mindiyi gün həmin məsələləri tənzimləyən Dövlət Gömrük Komitəsinin müxtəlif vaxtlarda qəbul etdiyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış normativ-hüquqi aktlarının ləğv edilməsi təmin edilmiş və bu barədə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına məlumat verilmişdir.

Həmçinin ictimaiyyəti gömrük işi sahəsində qüvvədə olan qanunvericilik aktları ilə daha operativ surətdə məlumatlandırmaq məqsədi ilə yeni qəbul edilmiş normativ-hüquqi aktların Komitənin internet saytında yerləşdirilməsi təmin edilmişdir.

**IV. Tarif tənzimlənməsi və valyuta nəzarəti.**

Hesabat dövründə Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) qüsursuz fəaliyyətinin təmin olunması üçün aidiyyəti qanunvericilik aktları ilə mövcud gömrük ödənişlərinin dərəcələrində və XİFMN-də edilən hər hansı dəyişikliklərin vaxtında həmin sistemdə əks etdirilməsi işi həyata keçirilmişdir.

2014-cü il ərzində müvəkkil banklar tərəfindən edilən müraciətlərə müvafiq olaraq "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin apardığı reyestrə daxil olmaq üçün banklar və bank olmayan kredit təşkilatlarının müraciətlərinə baxılması" Qaydasına müvafiq olaraq 3 müvəkkil bankın hesabat sənədləri təhlil edilməklə reyestrə salınmışdır.

Valyuta məzənnələri haqqında gündəlik məlumatlar operativ şəkildə Azərbaycan Respublikasının Mərkəzi Bankından XML formatda qəbul edilmiş və avtomatik olaraq Dövlət Gömrük Komitəsinin mərkəzləşdirlmiş məlumat bazasında və rəsmi internet saytında yerləşdirilməsi təmin edilmişdir.

Hesabat dövrü ərzində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısı" na edilən dəyişikliklər barədə məlumatlar aidiyyəti üzrə gömrük sərhəd buraxılış orqanlarına göndərilmiş və müvafiq olaraq ərazi və ixtisaslaşdırılmış gömrük idarələri tərəfindən zəruri məlumatların Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinə və Komitəyə dərhal göndərilməsinə gündəlik nəzarət edilmiş, həmçinin fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin gömrük sərhəd buraxılış məntəqələrindən keçirilməsi barədə aidiyyatı məlumatlar qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Mərkəzi Bankına və Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinə göndərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və digər dövlət orqanları ilə əməkdaşlıq davam etdirilmiş, həmin orqanlardan alınan qiymət məlumatları, habelə respublikanın istehlak bazarında qiymət səviyyələrinin dəyişilməsinə müvafiq olaraq

idxalda mühüm əhəmiyyət kəsb edən malların orta bazar topdansatış, habelə pərakəndə satış qiymətləri üzərində müşahidələrin aparılması və nəticələrinin təhlil edilməsi təşkil olunmuş, beləliklə istehlak bazarında qiymətlərin səviyyəsi üzərində daim monitorinq aparılmışdır.

Eyni zamanda 2014-cü il ərzində neft konsorsiumları ilə işləyən şirkətlərin müraciətlərinə əsasən "Hasilatın Pay Bölgüsü haqqında" Sazişlər üzrə işləyən podratçı və subpodratçı şirkətlərə "İdxal-ixrac rüsum və vergilərindən azad olma haqqında" sertifikatlar təqdim olunmuşdur.

Bununla yanaşı Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 98-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış və sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinə müvafiq qaydada daxil edilmiş yoxlama planına əsasən hesabat dövründə 21 xarici iqtisadi fəaliyyət iştirakçısının gömrük auditi aparılmışdır. Aparılmış gömrük auditləri nəticəsində 534 min manat məbləğində gömrük ödənişlərinin ödənilməməsi faktları aşkar olunmuş və həmin məbləğin dövlət büdcəsinə köçürülməsi məqsədilə müvafiq tədbirlər görülmüşdür. Əlavə olaraq, 2014-cü il ərzində görülmüş tədbirlər nəticəsində neft-qaz əməliyyatları ilə məşğul olan bir sıra şirkətlərdən 4,4 milyon manat məbləğində gömrük ödənişlərinin və dəbbə pulunun alınaraq dövlət büdcəsinə köçürülməsi təmin edilmişdir.

## V. Gömrük nəzarətinin təşkili.

Hesabat ilində gömrük nəzarətinin həyata keçirilməsi «bir pəncərə» prinsipinə uyğun olaraq təmin edilmişdir.

Ərazi və ixtisaslaşmış gömrük idarələrində istismarda olan texniki nəzarət vasitələrinin səmərəli istifadə edilməsi və malların gömrük sərhədindən sürətlə keçidi işi təşkil edilmiş, il ərzində mövcud olan texniki nəzarət vasitələrində yaranmış müxtəlif nasazlıqlar və çatışmamazlıqlar barədə məlumatlara dərhal reaksiya verilmiş, mövcud sahələr üzrə aidiyyəti mütəxəssislər dəvət edilməklə həmin çatışmamazlıqlar operativ surətdə aradan qaldırılmışdır.

2014-cü il ərzində iki gömrük orqanı arasında daşınan malların və nəqliyyat vasitələrinin mexaniki-elektron kilidlərlə bağlanaraq təyinat gömrük orqanına göndərilməsi işi VAİS vasitəsi ilə həyata keçirilmişdir. Hesabat dövründə Mobil gömrük bölmələri tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisində iki gömrük orqanı arasında yük daşıyan 130 000-dən artıq nəqliyyat vasitəsinin üzərinə mexaniki-elektron kilid (GPS) bağlanaraq təyinat yerinə çatdırılmışdır. Həmin nəqliyyat vasitələrinin müəyyən olunmuş marşrut xətti üzrə hərəkəti Komitənin Mərkəzinin əməkdaşları tərəfindən "GPS monitorinq" sistemi vasitəsi ilə müntəzəm olaraq müşahidə altında saxlanılmış, marşrutdan çıxma və digər pozuntu hallarının qarşısı operativ şəkildə

alınmışdır. Belə ki, avtomobillərlə və texniki nəzarət vasitələri ilə təmin olunmuş əməkdaşlar Hədəf Mərkəzindən verilən məlumatlar əsasında marşrut xəttindən çıxan və ya müəyyən olunmamış yerlərdə uzun müddət ərzində dayanan nəqliyyat vasitələrinin dayanmalarının səbəblərini araşdıraraq müvafiq tədbirlər görmüşlər. Hesabat dövründə Hədəf Mərkəzi tərəfindən 352-dən artıq yük avtomobilinin marşrut xəttindən çıxması və çıxma cəhdləri faktı aşkarlanmış və həmin yük avtomobilləri operativ tədbirlər görülməklə marşrut xəttinə qaytarılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli, 263 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi qaydaları"ının 10 nömrəli əlavəsinə uyğun olaraq mallara dair fiziki şəxslər tərəfindən verilən sadələşdirilmiş bəyannamənin 6 (altı) ay müddəti üçün aidiyyəti gömrük orqanlarının zəruri tələbatı öyrənilmiş, sadələşdirilmiş bəyannamə forması (azərbaycan, ingilis və rus dillərində) müvafiq qaydada mətbəə üsulu ilə çap olunduqdan sonra aidiyyəti gömrük orqanlarına göndərilməsi işi təşkil edilmişdir.

2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi ilə əlaqədar xarici ölkələrdən gələcək şəxslərin Azərbaycan Respublikasının qanunvericilik aktları ilə ilkin qaydada tanış olmalarını təmin etmək məqsədilə yeni normativ-hüquqi aktların müddəaları əsasında həm azərbaycan, həm də ingilis dilində "Gömrük məlumat kitabçası" və idxal-ixrac əməliyyatları ilə bağlı "Gömrük məlumat kitabçası" hazırlanaraq, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə göndərilmiş və hazırda onların mətbəə üsulu ilə çap olunaraq istifadəyə yönəldilməsi istiqamətində müvafiq işlər həyata keçirilməkdədir.

Bildiririk ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə ərazisində ekoloji vəziyyətin, insan sağlamlığının qorunması məqsədilə verilən tapşırığına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avro-4 ekoloji normalarına uyğunlaşdırılması barədə" 14.01.2014-cü il tarixli 2 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında ötən ilin 1 aprel tarixindən avtonəqliyyat vasitələrinə münasibətdə Avro-4 standartının tədbiqinə başlanılmışdır. Tapşırığın icrası ilə bağlı vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Avro 4 sinfinə uyğun olmayan nəqliyyat vasitələrinin ölkə ərazisinə buraxılmaması təmin edilmişdir. Məlumat üçün bildiririk ki, ölkə ərazisinə daxil olan nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi və qeydiyata alınması məqsədilə onların Avro 4 ekoloji standartlarına uyğunluğu yoxlanılır və təsdiqedici sənədlər verilməklə həmin nəqliyyat vasitələri üzərində gömrük

rəsimləşdirilməsi həyata keçirilir. Avro-4 ekoloji normalarına keçidlə bağlı aşağıdakı konkret tədbirlər görülmüşdür:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.01.2014-cü il tarixli 2 nömrəli Qərarının icrası ilə əlaqədar olaraq ictimaiyyəti və avtomobil idxalatçılarını məlumatlandırmaq məqsədi ilə 27.01.2014-cü il tarixdə Avtonəqliyyat Baş Gömrük İdarəsində Dövlət Gömrük Komitəsinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin və Baş Dövlət Yol Polisinin müvafiq qurumlarının rəhbərlərinin, həmçinin kütləvi informasiya vasitələrinin və avtomobil idxalatçılarının iştirakı ilə geniş tərkibli dəyirmi masa təşkil olunaraq Avro-4 ekoloji normalarının tətbiqi ilə bağlı bütün suallar cavablandırılmış, yeniliklər barədə ətraflı məlumat verilmişdir;

- Komitənin Mərkəzi Gömrük Ekspertizası İdarəsi tərəfindən AZS 635-2014 “Azərbaycan Respublikasının sertifikatlaşdırma sistemi və təkərli nəqliyyat vasitələrinin, onların avadanlıqlarının və hissələrinin sertifikatlaşdırılması Qaydası”standartı işlənilmiş və Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 049 saylı 23.04.2014-cü il tarixli əmri ilə təsdiq olunmuşdur. Eyni zamanda AZS 636-2012 “Yol nəqliyyatı. Ekoloji siniflər.” standartının “C” əlavəsinə təkliflər verilmiş və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 032 saylı 11.03.2014-cü il tarixli əmri ilə təsdiq olunmuşdur;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.01.2014-cü il tarixli 2 nömrəli Qərarının icrası, həmçinin idxal olunan nəqliyyat vasitələrinin yoxlanılma prosesinin asanlaşdırılması məqsədi ilə müvafiq tapşırıqları özündə əks etdirən 31.03.2014-cü il tarixli 100/036 saylı və 24.04.2014-cü il tarixli 100/046 saylı Sərəncamlar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri tərəfindən imzalanmış və işdə rəhbər tutulması üçün bütün gömrük sərhəd buraxılış məntəqələrinə göndərilmişdir;

- Dövlət Gömrük Komitəsi tərəfindən avtonəqliyyat vasitələrinin Avro-4 ekoloji normalarına uyğunluğunu müəyyən etmək üçün iki ədəd yeni Bosch BEA 350 markalı qaz analizatoru, bir ədəd səs ölçən və bir ədəd etalon benzin və dizel saxlamaq üçün yanacaqdoldurma çəni alınaraq Mərkəzi Gömrük Ekspertizası İdarəsinin nəqliyyat vasitələri üzrə sertifikatlaşdırma orqanının istifadəsinə verilmişdir;

- Mərkəzi Gömrük Ekspertizası İdarəsinin nəqliyyat vasitələri üzrə sertifikatlaşdırma orqanının iki eksperti Türkiyə Respublikasına ezam olunaraq “Türkiyə Bosch Ticarət Sənaye AŞ”şirkətində Bosch BEA350 markalı qaz analizatorların iş prinsipini öyrənmək məqsədi ilə treninqdə iştirak etmişlər, o cümlədən ərazi və ixtisaslaşmış gömrük idarələrində də nəqliyyat vasitələrinin ekoloji normalara uyğunluğunun müəyyən edilməsinə dair treninqlər təşkil olunmuşdur;

- Hesabat dövründə yazılı və elektron formada, o cümlədən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 192 “Çağrı Mərkəzi” vasitəsi ilə Avro-4

ekoloji normalarına keçidlə əlaqədar çox sayda vətəndaş müraciətləri ətraflı olaraq cavablandırılmışdır;

- Buraxılış illərinə və istehsalçı ölkələrə görə avtonəqliyyat vasitələrinin Avro-4 ekoloji normalarına uyğunluğu üzrə məlumat bazası yaradılmış və gömrük ərazisinə gətirilən avtonəqliyyat vasitələri həmin baza əsasında yoxlanıldıqdan sonra onların idxalına icazə verilməsi təmin edilmişdir;

- Gələcəkdə nəqliyyat vasitələrinin ölkə ərazisinə gətirilməsi zamanı anlaşılmazlıqların baş verməməsi üçün gömrük ərazisinə gətirilməsi nəzərdə tutulan nəqliyyat vasitəsi barədə ətraflı məlumatlar (zavod buraxılış tarixi, markası, şassi nömrəsi, rəngi və s.) əsasında Mərkəzi Gömrük Ekspertizası İdarəsinə qabaqcadan sorğu edilməsinin vacibliyinin ictimaiyyətin nəzərinə çatdırılması məqsədi ilə Komitənin internet saytında xüsusi elan yerləşdirilmişdir.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Texniki Əməkdaşlıq Proqramı çərçivəsində 2014-2015-ci illər üzrə "Gömrük sərhəd buraxılış məntəqələrində sanitariya (radioloji) nəzarət sisteminin inkişaf etdirilməsi" adlı layihə təsdiq olunmuşdur. Qeyd olunan layihə çərçivəsində tərtib olunmuş cədvələ əsasən müvafiq işlər davam etdirərək Mərkəzi Gömrük Ekspertizası İdarəsinə ehtiyacların öyrənilməsi ilə əlaqədar bu sahə üzrə AEBA-nın ekspertinin ötən ilin 25-29 sentyabr tarixlərində qiymətləndirmə səfəri və 3 (üç) gömrük əməkdaşının (sanitar - karantin xidmətinin əməkdaşları) AEBA-nın maliyyə hesabına ötən ilin 01-12 dekabr tarixlərində Litva Respublikasının Radiasiya Təhlükəsizliyinin Mərkəzinə elmi tədqiqat məqsədilə səfəri təşkil edilmişdir.

Beynəlxalq ticarət-təchizat zəncirinin kompleks idarəedilməsi sahəsində ÜGT tərəfindən kustar yolla düzəldilən (əldəqayırma) partlayıcı qurğuların hazırlanmasında istifadə olunan prekursorların qanunsuz dövriyyəsinə qarşı yönəlmiş "Qlobal Qalxan" Layihəsi çərçivəsində ÜGT tərəfindən hazırlanan tövsiyələr və sənədlər əsasında hazırlanmış "Partlayıcı maddələrin yaradılmasında istifadə olunan prekursorların eyniləşdirilməsi və dövriyyəsinə nəzarətə dair Standartlar"ın tələblərinə uyğun olaraq qeyd olunan mal kateqoriyaları üzərində nəzarət tədbirləri davam etdirilir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin struktur bölmələrinin "İonlaşdırıcı şüa mənbələrindən istifadə edən müəssisə və təşkilatların radioloji-gigiyenik Pasportu"nun qeydiyyata alınması və gömrük orqanlarında fəaliyyət göstərən aidiyyəti gömrük əməkdaşlarının fərdi dozimetrlərlə təmin olunması ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epedemiologiya Mərkəzi arasında bağlanmış müqavilə yenilənmişdir.

Qərbi Afrika ölkələrində (Qvineya, Liberiya, Nigeriya və Syerra-Leone) baş vermiş ebola virusunun törətdiyi xəstəliyin ölkə ərazisinə yayılmasının qarşısının alınması məqsədilə gömrük orqanları tərəfindən dövlət sərhədinin buraxılış məntəqələrində, o

cümlədən H.Əliyev Beynəlxalq Aeroportunun ərazisinə daxil olan fiziki şəxslər üzərində sanitariya nəzarəti çərçivəsində xəstəlik qeydə alınan şəxslərin müəyyən olunması, tibbi müşahidə, təcrid olunmuş otaqlarda müayinə, profilaktik və əksepidemik və s. tədbirlərin gücləndirilməsi istiqamətində müvafiq işlər görülmüş, aidiyyəti dövlət qurumları ilə məlumat mübadiləsi həyata keçirilmiş, o cümlədən Ebola virusunun törətdiyi xəstəliklə əlaqədar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Dövlət Gömrük Komitəsinə təqdim olunmuş materiallarda göstərilən aidiyyəti məsələlərlə bağlı dövlət sərhəd buraxılış məntəqələrində aidiyyəti tədbirlərin görülməsi məqsədilə gömrük orqanlarına müvafiq qaydada göstəriş məktubu göndərilmişdir. Dövlət sərhəd buraxılış məntəqələrində fəaliyyət göstərən gömrük əməkdaşlarının və gömrük sərhədini keçən şəxslərin ebola virusu xəstəliyi haqqında məlumatlandırılması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Sanitariya Karantin Müfəttişliyi tərəfində hazırlanaraq Dövlət Gömrük Komitəsinə təqdim olunmuş “Diqqət! Ebola qızdırması” adlı yaddaş bukleti müvafiq qaydada gömrük orqanlarına göndərilmişdir.

BYD kitabçalarından istifadə etməklə beynəlxalq yük daşımalarının həyata keçirilməsi üçün “AUTO.AZ” və “M.İ.Southtrans” Məhdud Məsuliyyətli Cəmiyyətlərinə BYD Kitabçasından istifadə etməklə Beynəlxalq Yük Daşımalarına buraxılmasına icazə verilmişdir.

“Azərbaycan Respublikasının Milli Atlası” layihəsi çərçivəsində “Gömrük Xidməti” xəritəsi hazırlanaraq Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə göndərilmiş və Komitənin aidiyyəti struktur bölmələrində istifadə edilməsi üçün çap edilməsi məqsədilə aidiyyəti üzrə təqdim edilmişdir.

“Dəniz təhlükəsizliyi strategiyası”nın 5-ci və 6-cı hissələrində göstərilən məsələlərin icrasının təmin edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərişinə müvafiq olaraq, Dövlət Gömrük Komitəsi tərəfindən Sərəncam hazırlanmış və Sərəncamın aidiyyəti bəndlərin icrası ilə əlaqədar “Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi” layihəsi çərçivəsində liman ərazisində terrorçuluğun və digər cinayətlərin qarşısının alınması, gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin daha da artırılması və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi məqsədilə müasir tipli texniki nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar onların növləri və markaları müvafiq qaydada Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

## VI. Gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizə.

2014-cü ildə Azərbaycan Respublikası gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti əsasən qabaqcıl dünya təcrübəsinə əsaslanan metodların, o cümlədən, texniki

vasitə və informasiya texnologiyalarının tətbiqi, əməliyyat-axtarış və qabaqlayıcı-profilaktik tədbirlərin gücləndirilməsi, habelə hüquqpozmalara qarşı mübarizədə əməkdaşlığın genişləndirilməsi yolu ilə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, qaçaqmalçılıq kanallarının aşkar və ləğv olunmasına, hüquqpozma törətmiş şəxslərin müvafiq məsuliyyətə cəlb edilməsinə yönəlmişdir.

Qaçaqmalçılığa və digər gömrük hüquqpozmalarına qarşı mübarizənin səmərəliliyinin artırılmasında beynəlxalq və regional əməkdaşlığın xüsusi əhəmiyyəti nəzərə alınmaqla, 2014-cü ildə ÜGT, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, GUAM, MARİƏM kimi mötəbər beynəlxalq və regional təşkilatlarla, xarici gömrük xidmətlərinin hüquq mühafizə bölmələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi işi davam etdirilmişdir.

Azərbaycan Respublikasının gömrük orqanları hesabat dövründə tütün məmulatları ilə əlaqədar “Gryphon”, dərman preparatları üzrə “PANGEA VII”, mədəni sərvətlər üzrə “Odissey”, kontrafakt mallar üzrə “Loqo Bonito”, partlayici maddələrin hazırlanmasında istifadə olunan prekursorlar üzrə “Qlobal Qalxan”, narkotiklərlə bağlı “Çasovoy 2014-Miraj”, “Leopard”,“Led”, psixoaktiv maddələrlə bağlı “Smart-Ket” kimi xüsusi beynəlxalq əməliyyatlarda yaxından iştirak etmişlər. Ümumdünya Gömrük Təşkilatının Hüquq Mühafizə Şəbəkəsi (CEN) və bu təşkilatın regional qurumu olan “RİLO-Moskva” ilə əməkdaşlıq gücləndirilmişdir.

Hesabat ilində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının dəstəyi ilə reallaşdırılan “Konteyner nəzarəti” proqramı çərçivəsində may ayında Aşqabad şəhərində keçirilmiş regional görüşdə, oktyabr ayında Bakıda, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Almaniyadan olan ekspertlər tərəfindən keçirilmiş təlimdə gömrük orqanlarının əməkdaşları fəal iştirak etmiş, bu layihə çərçivəsində kimyəvi maddələrin müəyyən edilməsində istifadə olunan 2 ədəd “Hazmat 2” avadanlıqları Komitəyə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 667 saylı 24.07.2014 cü il tarixli Sərəncamı ilə təsdiq edilmış “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi ilə əməkdaşlıq şəraitində gömrük sərhədindən keçən şəxslərin insan alveri təhlükəsi barədə məlumatlandırılması, insan alverinin, xüsusilə qadın və uşaq alverinin, həmçinin məcburi əməyin qarşısının alınması məqsədi ilə hazırlanmış maarifləndirici vəsaitlərin gömrük keçid məntəqələrində mütəmadi əsaslarla paylanılması təşkil edilmiş, gömrük orqanlarının şəxsi heyəti həyata keçirilən əməliyyat-axtarış fəaliyyəti və gömrük nəzarəti zamanı insan alverindən zərər çəkməsi ehtimal edilən şəxslərin, yaxud insan

alveri ilə bağlı cinayətlərin törədilməsi və ya hazırlanması aşkar edildiyi təqdirdə təxirəsalınmaz tədbirlər görməklə əldə olunmuş məlumat və sənədlərin dərhal maneəsiz olaraq İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinə təhvil verilməsi, həmçinin onlara zəruri kömək göstərilməsi istiqamətində mütəmadi təlimatlandırılmış, insan alverinə qarşı mübarizə üzrə milli əlaqələndirici orqan olan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin keçirdiyi tədbirlərdə Komitənin nümayəndəsi fəal iştirak etmişdır.

Hesabat dövründə həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 10811 hüquqpozma faktı aşkar edilmişdir ki, onlardan 424-ü cinayət xarakterli faktlar, 10387-i isə gömrük qaydaları əleyhinə inzibati xəta faktları olmuşdur.

Cinayət xarakterli faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyalarının və digər cinayət predmetlərinin dəyəri 2,7 milyon manat təşkil etmişdir. Bu əməllərin törədilməsində şübhəli bilinən 473 nəfərin (375 Azərbaycan vətəndaşı, 98 xarici) barəsində müvafiq tədbirlər görülmüşdür.

2014-cü il ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 158 fakt aşkar olunmuşdur. Bu faktlar üzrə ümumilikdə 178,4 kq narkotik vasitə və psixotrop maddə, o cümlədən, 38,5 kq həşiş, 76,7 kq heroin, 35,9 kq tiryək, 27 kq marixuana və 0,3 kq digər narkotiklər qanunsuz dövriyyədən çıxarılmışdır. Bu faktlar üzrə şübhəli bilinən şəxslərdən 160 nəfəri kişi, 26 nəfəri qadın olmaqla, ümumilikdə 186 nəfər barəsində müvafiq tədbirlər görülmüşdür. Həmin faktlar 139 halda narkotiklər İrandan, 5 halda Gürcüstandan, 2 halda Rusiyadan, 2 halda Kanadadan gətirilərkən, 7 halda Rusiyaya, 1 halda Qazaxıstana, 1 halda ABŞ-a, 1 halda İrana aparılarkən tutulmuşdur.

Gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 287 hüquqi şəxs (o cümlədən, 144 xarici hüquqi şəxs) və 10 089 fiziki şəxs (o cümlədən, 6 218 xarici) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 1,2 milyon manat cərimə tətbiq olunmaqla, dəyəri 228,9 min manat olan mallar müsadirə edilmişdir.

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən valyuta nəzarəti orqanı olan gömrük orqanları rezident və qeyri-rezidentlər tərəfindən valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində valyuta nəzarətini həyata keçirərkən valyuta qanunvericiliyinin tələblərini pozan şəxslərdən 514,5 min ABŞ dolları, 72,1 min avro, 630 min rus rublu, 23,1 min manat dəyərində 0,7 kq qızıl, 14,1 min manat dəyərində 130 ədəd qızıl zinət əşyaları, 123,8 min manat dəyərində 62,4 kq gümüş aşkar olunmuşdur.

Hesabat ilində həmçinin 127 ədəd bədii, tarixi, arxeloji əhəmiyyət kəsb edən əşya, 1,9 milyon ədəddən çox petarda və digər pirotexnika məhsulları, 4,6 kq civə, 38 ədəd elektroşok cihazı, 12 ədəd odlu silah patronu, 2 ədəd ov silahı, 64 ədəd ov silahlarının sursat və ləvazimatları, 8 ədəd qaz silahı və 57 ədəd qaz silahı üçün patron,

27 ədəd pnevmatik silah və 2398 ədəd pnevmatik silah üçün sursat, 772 ədəd soyuq silah, 979 ədəd televizor, 1643 ədəd məişət texnikası, 1122 ədəd mobil telefon və 2183 ədəd telefon aksesuarları, 105,6 min manat dəyərində dərman vasitələri, 9,1 min manat dəyərində baytarlıq və bitki dərmanları, 4 kq-dan çox qara kürü, 9470 ədəd parfumeriya və kosmetika ləvazimatları, 12,1 milyon ədəd siqaret, 1,1 min litr və 5,8 min ədəd spirtli içki, 525 min ədəd digər ölkələrin aksiz markaları və 4 top saxta aksiz markaları, həmçinin keyfiyyətsiz və xarab olmuş 12,5 kq yağ, 0,5 kq kürü, 16 kq pendir, 9 kq sosis və 56,3 kq kolbasa və külli miqdarda digər mallar tutulmuşdur.

2014-cü ilin yanvar-dekabr aylarında Komitənin İstintaq İdarəsinin əməkdaşları tərəfindən istintaqı tamamlanmış cinayət işləri üzrə 160 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, bunlardan 132 nəfər barəsində məhkəmə tərəfindən həbs növündə, qalan şəxslər haqqında isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan qətimkan tədbirləri seçilmişdir. Baxılması üçün məhkəməyə göndərilmiş cinayət işləri üzrə təqsirləndirilən şəxslərdən 22 nəfər İran İslam Respublikasının, 6 nəfər Rusiya Federasiyasının, 3 nəfər Türkiyə Respublikasının, 1 nəfər Gürcüstanın, qalanları isə Azərbaycan Respublikasının vətəndaşları olmuşdur.

2014-cü il ərzində Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 322-ci maddəsinin məqsədləri üzrə 71675 müxtəlif sınaq və analizlər aparılmış, xeyli miqdarda ərzaq məhsulları tutulmuş, nəticədə bir sıra keyfiyyətsiz müxtəlif növ mallar müəyyən edilmiş, bununla da istehlakçıların hüquqları qorunmuşdur.

Bununla yanaşı 2014-cü il ərzində gömrük sərhəd-keçid məntəqələrində xidmət göstərən instruktor-kinoloqlar və onlara təhkim olunmuş xidməti axtarış itlərinin tətbiqi nəticəsində ümumilikdə 16 fakt üzrə 6,0 kq tiryek, 1,0 kq marixuana, 3,0 kq digər müxtəlif növ narkotik vasitə, 2 ədəd qaz tapancası və 50 ədəd səs siqnal güllələri aşkar olunmuşdur.

## VII. İnformasiya texnologiyalarının və proqram təminatlarının tətbiqi.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzdində Sanitariya-Karantin Müfəttişliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti xidmətləri, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi, Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi arasında VAİS vasitəsi ilə məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilmişdir. Həmçinin “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS) və Azərbaycan Respublikasının Vergilər Nazirliyinin informasiya sistemi ilə məlumat mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası ilə Gürcüstan arasında hər iki dövlətin sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin texniki və proqram təminatı məsələləri həll edilmiş və müvəffəqiyyətlə sınaqdan keçirilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının, strukturuna daxil olan gömrük orqanlarının və tabeliyində olan digər qurumların "Elektron imza" kartları ilə təmin edilməsi işi davam etdirilmiş və VAİS-ə girişin yalnız "Elektron imza" kartları ilə həyata keçirilməsi təmin edilmişdir.

"Gömrük-sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin qeydiyyatında və yoxlanılmasında "Bir pəncərə" prinsipinin həyata keçirilməsi üzrə texnoloji sxem"ə uyğun olaraq, VAİS-də təkmilləşdirmələr aparılmış, gömrük-sərhəd buraxılış məntəqələrində yerləşən gömrük postlarından keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında risklərin avtomatlaşdırılmış qaydada idarə edilməsi - VAİS-RİSK sistemi tətbiq edilmişdir. Bu sistem əsasında gömrük-sərhəd buraxılış məntəqəsindən keçirilən mal və nəqliyyat vasitələrinin və onların sənədlərinin yoxlanılmasının dərəcəsini müəyyən etmək üçün Risklərin İdarə Edilməsi metoduna əsaslanaraq avtomatik olaraq risklər təhlil olunur və bu təhlilin nəticəsi olaraq VAİS vasitəsilə "YAŞIL kanal" (yoxlanılmadan buraxılır), "MAVİ kanal" (X-ray yoxlamasından keçirilir, fiziki baxışdan keçirilmir və sənədlər yoxlanılmır, GPS qurğusu quraşdırılır və sonradan audit aparılır), "SARI kanal" (X-ray yoxlamasından keçirilir, fiziki baxışdan keçirilmir, yalnız sənədlər yoxlanılır) və ya "QIRMIZI kanal" (sənədlər yoxlanılır və fiziki baxış həyata keçirilir) buraxılış sistemləri tətbiq olunmaqla "Gömrük nəzarətinin forması" müəyyən edilir.

Komitə ilə Almaniyanın "SMİTHS HEİMANN" şirkəti arasında imzalanmış müqavilə əsasında dövlət sərhəd buraxılış məntəqələrində iri həcmli yüklərə sürətli və yüksək keyfiyyətli gömrük nəzarətinin həyata keçirilməsi üçün Astara, Biləsuvar, Şahtaxtı, Sədərək və Culfa Gömrük İdarələrində, Tovuz Gömrük İdarəsinin Sınıq Körpü və Balakən Gömrük İdarəsinin Mazımçay gömrük postlarında HCVG-6032 tipli X-RAY rentgen avadanlıqları quraşdırılaraq istifadəyə verilmiş və VAİS-ə inteqrasiyası təmin edilmişdir. Avadanlıqlar vasitəsilə alınan görüntüləri həm də Dövlət Gömrük Komitəsində yerləşən "Hədəf Mərkəzi"ndən izləmək mümkündür. Azərbaycan region və MDB ölkələri arasında dövlət sərhəd buraxılış məntəqələrində iri həcmli yüklərə sürətli və yüksək keyfiyyətli gömrük nəzarətinin həyata keçirilməsi üçün bu cür müasir avadanlıqları tətbiq etmiş ilk və yeganə ölkədir. Eyni tipli avadanlıqlar Xaçmaz Gömrük İdarəsinin Samur gömrük postunda da quraşdırılmışdır və hazırda istismara hazırlanır. Həmçinin İpək Yolu terminalı üçün 1 ədəd HCVM tipli mobil skan avtomobili alınmış, test edilmiş və istismarına başlanılmışdır.

Yeni tikilən hava limanı üçün gələn yüklərin yoxlanılması üçün 4 ədəd 100x100 ölçülü və 2 ədəd 130x130 ölçülü T2Sİ skan avadanlıqları alınmışdır. Bu avadanlıqlar

hava limanlarında istifadə olunan Vanderland aparatına inteqrasiya edilmişdir. Əl ilə keçirilən baqajların yoxlanılması üçün isə 75x55 ölçülü T2Sİ skan avadanlıqları alınmış və tətbiq edilmişdir.

Hava nəqliyyatında uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə çıxışlarda xarici ölkədən alınmış 3 ədəd 3D formatlı skan aparatları-tomoqraflar quraşdırılmışdır.

Sərhəd keçid məntəqələrində əl ilə daşınan malların rentgen yoxlanılması zamanı aşkar olunan qadağan olunmuş və ya xüsusi icazə tələb olunan malların qeydə alınması və sonrakı proseslərin idarə olunması üçün VAİS-də əlavə imkanlar yaradılmışdır.

Ümumdünya Gömrük Təşkilatının “Malların buraxılış vaxtının ölçülməsi üzrə Təlimat”ında təsbit olunmuş metodologiyadan istifadə etməklə Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrində “Sərhədkeçmə vaxtının ölçülməsi (TRS)” layihəsi işlənilmiş, layihənin proqram təminatı hazırlanmış və VAİS-ə inteqrasiyası təmin edilmiş, Astara Gömrük İdarəsində, Biləsuvar Gömrük İdarəsinin Qoşa Təpə, Tovuz Gömrük İdarəsinin Sınıq Körpü və Balakən Gömrük İdarəsinin Mazımçay gömrük postlarında tətbiq edilmişdir. Bu layihənin tətbiqi mal və nəqliyyat vastələrinin sərhəddən keçidinə, buraxılışına və sərhəd keçidindən buraxılışına qədər keçən vaxtları müəyyən etməyə imkan verir. Toplanan statistik məlumatların təhlili mal və nəqliyyat vasitələrinin sərhəd keçidinin daha keyfiyyətli idarə olunmasına yardım edəcəkdir.

Ötən ildə müqavilə əsasında daha 44 (23 hüquqi və 1 fiziki) şəxsə internet üzərindən öz idxal-ixrac əməliyyatları haqqında arayışların alınması imkanı yaradılmışdır.

Hesabat dövründə “Gömrük rəsmiləşdirilməsi üçün müraciət” üçün 104810, “e-İlkin Məlumatlandırma” üçün 2395, “e-Gömrük Bəyannaməsi/Sərnişin” üçün 32458, “e-idxal/ixrac Əməliyyatlarım” üçün 2048, “e-Gömrük Ekspertizası” üçün 170, “Vətəndaş müraciətləri, sorğu və şikayətlər” üçün 701, “e-GÖÖEN Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması” üçün 12156, “Gömrük orqanlarına xidmətə qəbul” üçün 986 və “e-Gömrük Ödənişləri” üçün 277996 müraciət daxil olmuşdur.

## VIII. Beynəlxalq əməkdaşlıq.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən, Komitədə digər ölkələrin gömrük orqanları ilə gömrük işi sahəsində beynəlxalq normalara uyğun saziş, protokol və digər sənədlər hazırlanmışdır.

Belə ki, hesabat dövründə aşağıdakı beynəlxalq sənədlər imzalanmışdır:

- 17 mart 2014-cü il tarixdə Gürcüstanın Tbilisi şəhərində Ümumdünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin 2014-cü il Konfransı çərçivəsində, Azərbaycan Respublikası Prezidentinin 2972 nömrəli 25 iyun 2013-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım haqqında Saziş" (Azərbaycan Respublikasının 969-IVQ nömrəli 30 may 2014-cü il tarixli Qanunu ilə təsdiq edilmişdir);

- Azərbaycan Respublikası və Toqo Respublikası gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etmək üçün 9 may 2014-cü il tarixdə Lome şəhərində keçirilmiş görüş zamanı Azərbaycan Respublikası Prezidentinin 24 nömrəli 1 noyabr 2013-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, "Azərbaycan Respublikası Hökuməti və Toqo Respublikası Hökuməti arasında gömrük əməkdaşlarının potensialının gücləndirilməsi sahəsində qarşılıqlı yardım haqqında Saziş" (Azərbaycan Respublikası Prezidentinin 197 nömrəli 27 iyun 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdir);

- Azərbaycan Respublikasının Mərakeş Krallığındakı Səfirliyi və Dövlət Gömrük Komitəsinin birgə keçirdiyi tədbirlər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 437 nömrəli 6 may 2014-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, 12 may 2014-cü il tarixdə Mərakeş Krallığının Rabat şəhərində "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş";

- 4 iyun 2014-cü il tarixdə Bakı şəhərində keçirilmiş Müstəqil Dövlətlər Birliyi üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 59-cu iclası çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 441 nömrəli 8 may 2014-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Moldova Respublikası Maliyyə Nazirliyi yanında Gömrük Xidməti arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol";

- ölkəmizin Argentina Respublikasındakı səfirliyi və Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə Uruqvay Şərq Respublikasının Montevideo şəhərində keçirilmiş tədbirlər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2915 nömrəli 29 may 2013-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, 10 iyun 2014-cü il tarixdə "Azərbaycan Respublikası Hökuməti və Uruqvay Şərq Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş";

- gömrük işi sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məqsədilə 13-17 oktyabr 2014-cü il tarixdə Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin Sədri cənab Zoxid Dusanovun rəhbərliyi ilə nümayəndə heyətinin Bakı şəhərinə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 772 nömrəli 13 oktyabr 2014-cü il tarixli Sərəncamı ilə verilmiş səlahiyyətə əsasən, 14 oktyabr 2014-cü il

tarixdə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi arasında dövlət sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Protokol".

Azərbaycan Respublikası və Toqo Respublikası gömrük xidmətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etmək üçün Toqo Respublikası İqtisadiyyat və Maliyyə Nazirliyinin Baş Gömrük İdarəsinin dəvəti ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti 8-9 may 2014-cü il tarixdə Lome şəhərinə rəsmi səfərdə olmuşdur. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından bu ölkənin gömrük xidmətinə noutbuklar və planşetlər hədiyyə edilmişdir. Daha sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından hədiyyə edilən iki xidməti itin narkotik vasitələrin axtarışı üzrə təqdimatı keçirilmiş, axtarış itləri bu ölkənin gömrük xidmətinə təhvil verilmişdir.

Qeyd etmək istərdik ki, 2014-cü il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər hazırlanmış və keçirilmişdir. Belə ki, 22-24 yanvar 2014-cü il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə Milli Tədris Mərkəzləri Rəhbərlərinin 1-ci konfransı keçirilmişdir. Konfransda 42 ölkənin, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndə heyətləri iştirak etmişdir.

17-18 mart 2014-cü il tarixdə Gürcüstanın Tbilisi şəhərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə sədr müavini kimi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Gürcüstan Gəlirlər Xidmətinin birgə təşkilatçılığı ilə Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin 2014-cü il Konfransı keçirilmişdir. Konfransda İqtisadi Rəqabət paketi ilə bağlı keçirilmiş Regional Seminarın, Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Təhqiqat və Araşdırma Xidməti Rəhbərlərinin 20-ci iclasının və ÜGT-nin Maliyyə Komitəsi ilə bağlı İşçi Qrupun sonuncu iclasının nəticələri və qəbul edilmiş tövsiyələrlə bağlı görülmüş işlər, həmçinin gömrük-özəl sektor əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

21-23 may 2014-cü il tarixdə "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin birgə təşkilatçılığı ilə "Bali Konfransından sonra Ticarətin Asanlaşdırılması: Siyasətin təcrübədə tətbiqi" mövzusunda Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin birinci Qlobal Konfransı keçirilmişdir. 200-ə yaxın nümayəndənin iştirak etdiyi və gömrük işi sahəsində tədqiqatlar, gömrük araşdırmaları, təhsili və təlimi ilə bağlı fikir mübadiləsinin aparıldığı bu konfransda 20-yə yaxın nüfuzlu beynəlxalq təşkilat və şirkətin, dünyanın 60-a yaxın ölkəsinin gömrük xidmətlərinin və gömrük işi ixtisasını tədris edən ali təhsil müəssisələrinin nümayəndələri, elm xadimləri, o cümlədən iqtisad elmləri üzrə Nobel mükafatı laureatları iştirak və çıxış etmişlər.

Ötən il ərzində Ümumdünya Gömrük Təşkilatı, BMT İnkişaf Proqramı, MDB üzv dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının Gömrük Əməkdaşlıq Komitəsi, Ümumdünya Gömrük Təşkilatının hüquq mühafizə fəaliyyəti üzrə Regional Məlumat Əlaqələndirmə Ofisləri (RİLO), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyət aparılmışdır.

2014-cü il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən yuxarıda qeyd olunanlardan başqa bir sıra digər regional və beynəlxalq səviyyəli tədbirlər təşkil edilmiş və Komitənin səlahiyyətli nümayəndələri bu və digər bu kimi tədbirlərdə iştirak etmişlər.

## IX. Kadr məsələləri və peşəkarlığın artırılması.

Komitənin internet saytı vasitəsi ilə gömrük xidmətinə işə qəbul üzrə ərizələrin qəbulu, ərizəçilərin məlumatlandırılması və gömrük xidmətinə qəbulu üzrə test imtahan sistemi təkmilləşdirilmiş və “Kadrların idarə edilməsi” altsistemi ilə inteqrasiyası təmin edilmişdir. Sistemin test bankının “İnformasiya texnologiyaları” və “Ümumi hissə və əlavə blok” bölmələrinə yeni test sualları əlavə olunmuşdur.

2014-cü ildə 144 nəfər işə qəbul edilmiş, 98 nəfər əməkdaş isə işdən azad edilmişdir. Eyni zamanda, 244 nəfər tutduğu vəzifədən daha yüksək vəzifəyə təyin edilmiş, 22 nəfər isə tutduğu vəzifədən daha aşağı vəzifəyə təyin olunmuşlar.

Hesabat dövründə müraciətlər əsasında təşkil olunmuş test imtahanlarında 468 nəfər vətəndaş iştirak etmiş, təsdiq olunmuş qaydalara uyğun olaraq, daha yüksək bal toplayanlar növbəti müsabiqə mərhələsinə buraxılmış, müsabiqədən keçənlər aidiyyəti üzrə vakant iş yerlərinə təyin olunmuşlar.

2014-cü ildə Gömrük Akademiyasında yeni işə qəbul edilmiş 56 nəfər gömrük əməkdaşlarına gömrük işi tədris edilmişdir.

Qeyd etmək lazımdır ki, Dövlət Gömrük Komitəsinin Akademiyasında bakalavr təhsili bu ildən fəaliyyətə başlamışdır. Ötən ildə Akademiyaya ilk dəfə olaraq 40 nəfər tələbə qəbul olunmuşdur. Yeni tədris ilində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən Akademiyaya qəbul azərbaycan bölməsi üzrə 2 ixtisas - iqtisadiyyat və hüquqşünaslıq üzrə aparılmışdır. Hər ixtisas üzrə 20 plan yeri nəzərdə tutulmuş və bu plan yerləri tam olaraq dolmuşdur. Bunlardan iqtisadiyyat ixtisası üzrə abituriyentlərin topladığı yüksək ballara görə 20 yer ödənişsiz əsaslarla, hüquqşünaslıq ixtisası üzrə isə 1 plan yeri ödənişsiz, 19 plan yeri isə ödənişli əsaslarla həyata keçirilmişdir.

Hesabat dövrü ərzində 3 nəfər gömrük əməkdaşı Rusiya Gömrük Akademiyasında təhsilini davam etdirmişdir.

Hesabat dövründə xarici dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi ilə birgə Bakı şəhərində və dünyanın bir çox ölkələrində keçirilmiş forum, konfrans, təlim,

seminar, kurs və digər mühüm peşəkarlığın artırılması yönümlü tədbirlərdə Dövlət Gömrük Komitəsinin və onun struktuna daxil olan gömrük orqanlarının əməkdaşları iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunmuş gömrük əməkdaşları hesabat ilində də möhtərəm Prezident tərəfindən imzalanan müvafiq Sərəncamlara əsasən 2 nəfər 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, 5 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə və 33 nəfər “Dövlət qulluğunda fərqlənməyə görə” medal ilə təltif olunmuş, həmçinin 2 nəfərə ali rütbə və 2 nəfərə fəxri adlar verilmişdir.

2014-cü il ərzində xidmətdə qazandıqları nailiyyətlərə və xidməti vəzifələrini yerinə yetirərkən yüksək operativlik və sayıqlıq göstərdiklərinə görə, eyni zamanda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 22-ci il dönümü və gömrük əməkdaşlarının peşə bayramı münasibətilə gömrük əməkdaşlarından 166 nəfər Fəxri Fərman və gömrük orqanlarında qüsursuz xidmətə görə 56 nəfər gömrük əməkdaşı döş nişanları ilə təltif edilmiş, 135 nəfərə xüsusi rütbələr verilmiş, 7 nəfər bir aylıq vəzifə maaşı həcmində mükafat almış, 2 nəfər əməkdaşa verilən intizam tənbehi üzərindən götürülmüş, 118 nəfər əməkdaşa təşəkkür elan edilmişdir.

Hesabat dövründə aparılan araşdırmaların nəticəsində müəyyən edilmiş xidməti pozuntulara yol verdiklərinə görə 139 nəfər gömrük əməkdaşı intizam məsuliyyətinə cəlb olunmuşdur. Bunlardan 6 nəfər gömrük orqanlarından xaric edilmiş, 1 nəfərin xüsusi rütbəsi bir pillə aşağı salınmış, 28 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət elan edilmiş, 80 nəfərə töhmət elan edilmiş, 24 nəfərə isə irad tutulmuşdur.

Hesabat dövrü ərzində Hospitalın yüksək ixtisaslı kadr potensialını daha da gücləndirmək üçün axtarışlar aparılmış, uyğun mütəxəsislər işə dəvət olunmuşlar. Hazırda malik olduğumuz kadr potensialı hesabına qeyd olunduğu kimi, qaraciyər köçürülməsi əməliyyatlarına başlanmış, böyrək və mədəaltı vəzi transplantasiyasına isə yaxın zamanlarda başlamaq planlaşdırılmışdır.

Hospitalda çalışan həkim kollektivi içərisindən elmi-tədqiqatla məşğul olanlar öz elmi araşdırmalarını davam etdirmiş, həm Respublikamızın, həm də xarici ölkələrin tibb jurnallarında məqalələr dərc etdirmişlər. Əməkdaşlarımızdan 3 nəfəri elmi-tədqiqat işlərini bitirərək tibb elmləri namizədi – alimlik dərəcəsi almışlar. Hazırda Hospitalda 1 tibb elmləri doktoru – professor, 1 tibb elmləri namizədi – dossent, 22 tibb elmləri namizədi çalışmaqdadır.

## X. Dövlət orqanları və ictimaiyyətlə əlaqələr.

Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən, Milli Məclisindən, hüquq mühafizə orqanlarından, nazirlik və komitələrdən, digər mərkəzi icra hakimiyyəti orqanlarından,

xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, hüquqi şəxslərdən, respublikanın gömrük orqanları və təşkilatlarından, həmçinin, vətəndaşlardan və əcnəbi vətəndaşlardan 22485 sənəd daxil olmuş və aidiyyəti üzrə 12830 sənəd xaric olmuşdur.

Aylıq olaraq xarici ticarəti əks etdirən məlumat bazası Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Mərkəzi Bankına, Vergilər Nazirliyinə, İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim olunmuş, o cümlədən 2013-cü ilin yekunu və 2014-cü ilin keçən hər ayı üzrə idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikasının metodologiyasına müvafiq olaraq təhlil edilmiş və Azərbaycan Respublikası Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim olunmuşdur. Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası bülletenlərinin Komitənin internet saytında yerləşdirilmişdir.

Hesabat dövründə fiziki şəxslər tərəfindən məktublar, teleqramlar, telefonoqramlar, həmçinin Komitənin rəsmi internet səhifəsi və 192 nömrəli “Çağrı Mərkəzi”i vasitəsi ilə daxil olan bütün müraciətlərə aidiyyəti üzrə cavablar verilmişdir.

Ölkəmizdə yaşayan xarici ölkə vətəndaşlarının - iş adamlarının, xarici nümayəndəliklərin maraqları nəzərə alınmaqla "Gömrük xəbərləri" qəzetində materiallar həm rus, həm də ingilis dillərində dərc edilmiş, xarici ölkə vətəndaşlarının və iş adamlarının ölkəmizdə baş verən bu və ya digər əhəmiyyətli hadisələrlə məlumatlandırılması təmin edilmişdir.

Ölkəmizin gömrük orqanlarının bütün istiqamətlərdə gördüyü işlər - istər fiskal siyasətin həyata keçirilməsində, istər hüquq-mühafizə orqanı kimi gömrük sahəsində hüquqpozmalara qarşı mübarizədə, mədəni sərvətlərin qorunmasında, gömrük nəzarətinin təşkilində, Azərbaycan gömrük orqanlarının beynəlxalq imicinin möhkəmlənməsi, xidmət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması və digər çox şaxəli fəaliyyəti "Gömrük xəbərləri" və ölkənin digər kütləvi informasiya vasitələrində, eləcə də Komitənin rəsmi internet saytında işıqlandırılmışdır.